## İdman xəbərləri

# Əvəzedicilər 1 qolla qalib gəldi



"Qəbələ"nin əvəzedici komandası yoxlama oyunu keçirib. 2017-2018-ci illər mövsümünün ikinci yarısına hazırlığı davam etdirən "qırmızı-qaralar" Bakıda "Keşlə"nin əvəzediciləri ilə qarşılaşıb. "İnter Arena"da baş tutan görüşün taleyini 1 qol həll edib. 83-cü dəqiqədə paytaxt təmsilçisinin qapısına yol tapan Tunar Mütəllimovun qolu komandamıza 1:0 hesablı qələbə qazandırıb.

Komandamız təlim-məşq toplanışı keçirmək üçün ayın 26-da Gürcüstana yollanacaq.

# 5 futbolçumuz Azərbaycan yığmasında

19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının heyəti açıqlanıb. Yığmamız yanvarın 31-dək Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışı keçirəcək. Toplanışa "Qəbələ"nin 5 futbolçusu da dəvət alıb. Bunlar Fərid Nadirov, Rüstəm Nuriyev, Kamran Quliyev, Samir Qurbanov, Məhəmməd Məhərrəmovdur.

Hazırlıq müddətində U-19 üç yoxlama oyunu keçirəcək. Milli komanda yanvarın 28-də Kosovonun müvafiq yaş qrupundan ibarət yığması, 30-da isə Rusiyanın "Krasnodar" klubunun əvəzediciləri ilə üz-üzə gələcək.

# Pərviz Abdullayevin Mersin qələbəsi



"Qəbələ" İdman Klubunun döyüşçüsü Pərviz Abdullayev növbəti qələbəsini qazanıb. İdmançımız bu dəfə Türkiyədə uğur əldə edib. O, Mersin şəhərində təşkil olunan muay-tay yarışında güvəsini sınayıb. 75 kq çəki dərəcəsində çıxış edən Pərviz Abdullayev Türkiyə təmsilçisi İsmayıl Uzuner ilə qarşılaşıb. Pərviz bu döyüşdə qalib gələrək, rinqi qələbə ilə tərk edib.

**«Qəbələ»**

# Şahmatçımızın uğurları



Amerika Birləşmiş Ştatlarında dərc olunan "Strate Gams" (strateji oyunlar) jurnalının keçirdiyi şahmat bəstəçiliyinin tətbiqi üzrə beynəlxalq turnirdə Qəbələ şahmatçısı Aydan Hüseynzadə Azərbaycanı uğurla təmsil etmişdir.

Onun göndərdiyi məsələlər üçüncü mükafatı qazanmışdır. Təqdim olunan məsələlərdən ikisi isə "Strate Gams" jurnalında dərc edilmişdir .

Aydan Hüseynzadənin uğurları sevindiricidir. Onun digər bir məsələsi Fəxri rəyə layiq görülmüşdür.

Biz də Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin gənc müəllimi, şahmat məşqçisi Aydan Hüseynzadəni qazandığı nailiyyətlərinə görə təbrik edirik.

**Nəzakət ƏLİZADƏ,**
**məktəbin müəllimi**

## Xalq təbabətindən sətirlər

# Dəfnə yarpağı



Dəfnə yarpağının dəmləməsi qədimdən xalq təbabətində müxtəlif xəstəliklər zamanı geniş istifadə olunur.

Fitonsidlərlə zəngin olan dəfnə yarpağının dəmləməsi soyuqdəymə və qrip zamanı çox yaxşı müalicəvi təsir edir, xəstənin vəziyyətini yüngülləşdirir, immun sistemini gücləndirir. Dəmləməni hazırlamaq üçün 5-6 dəfnə yarpağını 1 stəkan qaynar suda dəmləyin, 30 dəqiqədən sonra süzün və 1/2 çay qaşığı bal əlavə edib gün ərzində 3 dəfə stəkanın 1/3 olmaqla ılıq şəkildə qəbul edin.

İshal zamanı dəfnə yarpağının dəmləməsi mikrob əleyhinə təsir edir. 5-6 dəfnə yarpağı 1 stəkan qaynar suda dəmlənilir və gün ərzində 3 dəfə 1/3 stəkan olmaqla içilir.

Dəfnə yarpağının dəmləməsi qanda şəkərin səviyyəsini aşağı salır və şəkərli diabet zamanı köməkçi vasitə kimi istifadə olunur. Axşamdan termosda 10 dəfnə yarpağını 1/2 litr qaynar suda dəmləyin və növbəti gün hər qida qəbulundan 30 dəqiqə əvvəl stəkanın 1/3 hissəsi olmaqla için.

Dəfnə yarpağının dəmləməsi yaxşı sidikqovucudur. 3-4 dəfnə yarpağının üzərinə 1 stəkan qaynar su əlavə olunur, 2-3 dəqiqə ərzində vam odda qaynadılır, 1 saatdan sonra süzülür və sonra gün ərzində içilir. 1 həftə ərzində için, sonra 1 həftə fasilə verin və yenə 1 həftə için.

Dəridə müxtəlif səpgilər, uşaqlarda diatez, bişməcə zamanı dəfnə yarpağının dəmləməsi çox yaxşı kömək edir, dərini təmizləyir, antiseptik təsir edir, səpgiləri daha solğun edir.

Dəfnə yarpağının dəmləməsi yuxarı tənəffüs yollarının iltihabları, sinusitlər (haymorit, frontit) zamanı inhalyasiya üçün istifadə olunur. Bunun üçün 10 quru dəfnə yarpağı 1 stəkan suda dəmlənir, enli qaba tökülür və xəstə bu qabın üzərində nəfəs alır. Prosedura bir neçə dəfə təkrar olunmalıdır.

Dəfnə yarpağının dəmləməsi orqanizmi ziyanlı maddələrdən təmizləyir. 6-7 quru dəfnə yarpağı termosa qoyulur, üzərinə 1/2 litr qaynar su əlavə olunur və 2 saat ərzində dəmlənilir. Daha sonra dəmləməni kiçik qurtumlarla gün ərzində içmək lazımdır. Müalicə kursu 1 həftədir. 1 həftədən sonra müalicəni təkrarlamaq olar.

Dəfnə yarpağının dəmləməsi sinir sisteminə çox müsbət təsir edir, insanı sakitləşdirir, yuxusuzluğun aradan qaldırılmasına kömək edir.

Ayaqlarınız həddən artıq tərləyirsə və ayaqlarınızdan pis qoxu gəlirsə, dəfnə yarpağı ilə vanna edin. 10 yarpaq 1/2 litr qaynar suda 1/2 saat ərzində dəmlənir, və ayaq vannası üçün suya əlavə olunur.

## Bilirsinizmi?

- Son 5 ildə Kanada 4 dəfə BMT tərəfindən yaşamaq üçün ən əlverişli ölkə elan edilib.
- Bir il ərzində insan ürəyi 36 800 000 dəfə döyünür.
- Bütün həyatı ərzində insan təqribən 40 ton ərzaq məhsulu istehlak edir.
- Ayıların 42 dişi olur.
- Susuzluğa ən çox davam gətirən canlı dəvə yox, siçovuldur.
- Qədim Romada xəstəni əməliyyat masasında keçinən həkimin qollarını kəsirdilər.
- Antarktidada yerləşən Viktoriya torpağında küləyin sürəti saatda 215 kilometrdir.
- Liviya lideri Müəmmər əl-Qəzzafi tam 42 il dövləti idarə edib.

## *Qəbələ Rayon Mərkəzi Xəstəxanası 2018-ci ildə satınalmaları həyata keçirmək üçün aşağıdakı lotlar üzrə katirovka sorğusu elan edir*

1. *Əsaslı təmir xərcləri.*
2. *Yumşaq inventar.*
3. *Cari təmir xərcləri.*
4. *Dəftərxana ləvazimatı və təsərrüfat xərcləri.*
5. *Bərk inventar.*
6. *Mətbəə xərcləri.*
7. *İdarənin digər xərcləri.*
8. *Avadanlıq.*
9. *Əsas vəsaitin satınalnması.*
10. *Kommunal və kommunikasiya xidmətləri.*

Katirovka təklifləri **5 fevral 2018-ci il** tarixədək qəbul olunur.

**Ünvan: Abbas Səhhət küçəsi, №-12**

**Əlaqə telefonu: (024) 20-5-13-46**




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Corlu kənd sakini **Kərimov Müslüm Kərim oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0017 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Həmzəli kənd sakini **Babayeva İsmarə Nurəhməd qızına** verilmiş RX seriyalı 0562231 nömrəli (reyestr nömrəsi 406013060019 qeydiyyat nömrəsi 1914009925) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və AA seriyalı 007626 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki 8 nömrəli Rayonlararası Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən Qəbələ şəhər sakini **Məmmədov Arif Rəsul oğluna** 14 avqust 2015-ci il tarixldə verilmiş AC seriyalı 048862 nömrəli BC kateqoriyalı **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **Abdullayev Abdulla Almirzə oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0015 nömrəli (kod 40602028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.